 ISSN 2709-5096

**UOT 323.1**

***Kəmalə Xudaverdiyeva,***
***AMEA Qafqazşünaslıq İnstitutu Ermənişünaslıq şöbəsi,***
***baş mütəxəssis***
***kamala.khudaverdiyeva@bk.ru***
***ORCID iD: 0000-0002-3789-2706***
https://doi.org/10.59849/2709-5096.2023.1.47

# ERMƏNİSTANDA MİLLİ AZLIQLARA MÜNASİBƏT: TARİX VƏ VARİSİLİYİN VƏHDƏTİ

***Annotasiya***

*Məqalədə Ermənistan dövlət müstəqilliyinin bərpasını elan etdikdən sonra orada yaşayan milli azlıqların vəziyyətinin illər içərisində necə dəyişdiyi, qeyri-erməni əhalinin hansı səbəblərə əsasən mühacirət etdiyi və bunun üçün Ermənistan hökümətinin gördüyü tədbirlər araşdırılmışdır. Ermənistanda milli azlıqlara qarşı təzyiqlər gün-gündən artmaqdadır. Milli azlıqların və etnik qrupların həyat səviyyələrinin yaxşılaşdırılması üçün qəbul edilən qanunların yerinə yetirilməməsində məqsəd onların ölkədən köçünün sürətlənməsi və saylarının daha da azaldılmasıdır. Məqalənin yazılması zamanı kontent analiz və müqayisəli təhlil aparılıb, erməni kütləvi informasiya vasitələrindəki materiallar toplanılıb, öyrənilib, sistemləşdirilib və təhlil edilib. Ermənistanda yaşayan milli azlıqların azalma səbəbləri və həyat şəraitlərinin hansı səviyyədə olması ilə əlaqədar məsələlər analiz edilib.*

*1991-ci ildən sonra Ermənistanda cüzi sayda qalmış etnik qruplar və milli azlıqlar ciddi təzyiq altındadılar. Onların yaşadıqları yaşayış məskənlərinin sosial-iqtisadi inkişafı məqsədli şəkildə yubadılır. Ağır sosial-iqtisadi vəziyyət, dövlət səviyyəsində yəhudilərə ayrı-seçkilik siyasəti yəhudilərin, yezidilərin və aysorların ölkədən miqrasiyasına səbəb olmuşdur.*

***Açar sözlər:*** *Ermənistan, milli azlıqlar, antisemitizm, yezidilər, aysorlar, molokanlar*

**Kamala Khudaverdiyeva**

# ATTITUDE TO NATIONAL MINORITIES IN ARMENIA: UNITY OF HISTORY AND SUCCESSION

***Annotation***

*In the article several problems like how the situation of the ethnic minorities living in Armenia has changed over the years after Armenia announced the restoration of state independence, the reasons for emigration of the non-Armenian population and the measures taken by the Armenian goverment for this are reflected. Pressures against ethnic minorities in Armenia are increasing day by day. The purpose of non-implementation of the laws adopted to improve the living standards of national minorities and ethnic groups is to accelerate their emigration from the country and further reduce their numbers. In the writing process of the article, content analysis and comparative analysis were carried out, materials from the Armenian mass media were collected, studied, systematized and analyzed. Issues related to the reasons for the decline of national minorities living in Armenia and the level of their living conditions were analyzed.*

*As a result of the research, it is clear that after 1991, the few remaining ethnic groups and minorities in Armenia were under serious pressure. The socio-economic development of the settlements where they live is deliberately delayed. The severe socio-economic situation, the policy*

*of discrimination against Jews at the state level caused the migration of Jews, Yezidis and Aysors (Assyrian people) from the country.*

***Keywords**: Armenia, national minorities, anti-Semitism, Yezidis, Aysors (Assyrian people), Molokans*

***Giriş***

Qafqaz regionu qədimdən bəri burada yaşayan, öz adət-ənənələrini qoruyub saxlayan və inkişaf etdirən bir çox etnik qrupun sıx məskunlaşdığı ərazilərdən olub.

1918-ci ildə Cənubi Qafqazda tarixi Azərbaycan torpaqlarında Ermənistan adlı bir dövlət quruldu. Daşnaklar hakimiyyətə gələrkən Ermənistan ərazisində 1 milyon 200 min nəfər əhali var idi. 1920-ci ilin sonlarında Ermənistan sovetləşdiriləndə isə ölkədə cəmi 770 min nəfər əhali qalmışdı. 1918-1920-ci illərdə Ermənistanda əhalinin milli tərkibi dəyişdirildi. Daşnaksütyunun hakimiyyəti illərində Ermənistanda əhali 35,5% azaldı. Türklər 77%, kürdlər 98%, yezidi kürdlər 40% azaldı. Əgər 1918-ci ildə Ermənistanda ermənilər 885 min nəfər idisə, 1920-ci ildə 690,5 min nəfər olmuş və ya 22% azalmışdılar. Türklər isə əgər 1918-ci ildə 260 min nəfər idisə, 1920-ci ildə 60 min olmuş və ya 77% azalmışdılar. Kürdlər 1918-ci ildə 25 min nəfər idisə, 1920-ci ildə 0,5 min nəfər olmuş və ya 98% azalmışdılar. Yezidlər 8 min nəfər idisə, 1920-ci ildə 5 min nəfər olmuş və 40% azalmışdılar. Ruslar isə 15 min nəfərdən 14 min nəfərə düşmüş və ya 7% azalmışdılar. Digər millətlərin sayı 7 mindən 4 min nəfərə düşmüş və ya 43% azalmışdı. 1918-1920-ci illərdə daşnak hökuməti azərbaycanlı və kürd kəndlərinin dinc əhalisini "dövlət tələblərini yerinə yetirməmək" bəhanəsi ilə bombardman edərək dağıtmış, amansızlıqla öldürmüş və ya qaçqına çevirmişdi. [5, s.427] Daşnaksütyunun əsas məqsədi ölkəni tamamilə erməniləşdirmək, qeyri-erməni əhalini sıxışdırmaq, ölkədən çıxarmaq, vəzifələrə ancaq erməni əsilli əhalini təyin etmək, qeyri-erməni əhalini dövlət və hökümət strukturlarından uzaqlaşdırmaq idi. Erməni dilini bilməyən ermənilər isə vəzifələrində qalmışdılar. [5, s.428] Ermənilər illər boyunca həyata keçirdikləri soyqırımlar, kütləvi qırğınlar, deportasiyalar sayəsində öz niyyətlərinə çatmağı bacarırdılar.

1926-cı il siyahıyaalınmasına əsasən, Ermənistan əhalisinin ümumi sayı 880 min 464 nəfər idi. Əhalinin 743 min 571 nəfəri erməni, 19 min 548 nəfəri rus, 76 min 870 nəfəri azərbaycanlı, 15 min 210 nəfəri yezidi kürdlər, 335 nəfəri yəhudi, 274 nəfəri gürcü, 2 min 980 nəfəri yunan, 2 min 286 nəfəri ukraynalı, 18 min 1 nəfəri isə digər millətlərin nümayəndələri idi. Ermənistan ərazisində azərbaycanlıların sayının XX əsrin əvvələri ilə müqayisədə azalmasına İrəvan, Zəngəzur, Dərələyəz, Vedi və digər bölgələrdə həyata keçirilən soyqırımlar təsir göstərmişdir. Lakin SSRİ dövründə də erməni hökümətinin milli azlıqlara və etnik qruplara qarşı təzyiqləri azalmamış, əksinə, artmışdı. Dövlət müstəqilliyinin bərpası ərəfəsində Ermənistanda - 1989-cu ildə ümumi əhalinin sayı 3 milyon 304 min 776 nəfər idi. Əhalinin 3 milyon 83 min 616 nəfəri erməni, 51 min 555 nəfəri rus, 84 min 860 nəfəri azərbaycanlı, 56 min 127 nəfəri yezidi, 720 nəfəri yəhudi, 1334 nəfəri gürcü, 4650 nəfəri yunan, 8 min 341 nəfəri ukraynalı, 7 min 580 nəfəri isə digər millətlərin nümayəndələri idi.

2001-ci ilin statistikasına görə, Ermənistan əhalisinin sayı 285 min 922 nəfər azalıb. [19] Bu zaman belə bir sual yaranır: Ermənistanda sayı 2,1 faiz təşkil edən etnik qrupların və milli azlıqların vəziyyəti necədir?

Ermənistan özü monoetnik ölkə kimi tanınmasına baxmayaraq, orada az da olsa digər xalqların nümayəndələri vardır. Bu etnik qruplara yezidi kürdləri, yəhudiləri, molokanları, aysorları, rusları və digərlərini aid etmək olar. Hətta Ermənistanın Baş naziri Nikol Paşinyan milli

 ISSN 2709-5096

azlıqları noyabrın 2-si "Milli azlıqların günü" münasibəti ilə təbrik edib. Təbrik məktubunda xüsusi olaraq qeyd edilmişdir:

*"Ermənistanın milli azlıqlarının hörmətli nümayəndələri! Ermənistanın milli azlıqları dünya millətləri ailəsinin bir hissəsi kimi Ermənistan əhalisinin ayrılmaz parçasıdır və Ermənistanı öz kimliklərii ilə zənginləşdirirlər. Ermənistanın bütün milli azlıqlarının nümayəndələrini bu bayram münasibətilə təbrik edir, onlara can sağlığı, sülh, tərəqqi və uğurlar arzulayıram".* [21]

Lakin Ermənistanda milli azlıqların rifah səviyyəsi erməni siyasətçisi Alen Simonyan və başqalarının göstərdikləri, təqdim etdikləri kimi deyil. Milli azlıqların rifah səviyyəsinin yüksəldilməsi üçün Ermənistan hökuməti bir çox qanunlar qəbul edib, beynəlxalq bir çox konvensiyalara qoşulub. Lakin qəbul edilən qanunların əhali üçün heç bir müsbət təsiri olmayıb. Bəs ölkə nə kimi qanunlar qəbul edib və hansı qanunlar yanlız kağız üzərində qalıb?

***Ermənistan hökümətinin milli azlıqların müdafiəsi üçün qəbul etdiyi qanunlar və gerçəklər***

Ermənistan hökuməti milli azlıqların və etnik qrupların rifah səviyyəsinin yaxşılaşdırılması və müdafiəsi üçün bir çox qanunlar qəbul edib, konvensiyalara qoşulub. Bu konvensiyalardan biri də Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasıdır. Ermənistan bu konvensiyanı 1997-ci ilin 25 iyulunda imzalamış, 1988-ci ilin 20 iyulunda ratifikasiya etmiş, həmin ilin noyabr ayının 1-də konvensiya Ermənistan ərazisində hüquqi olaraq qüvvəyə minmişdir. Konvensiyaya dair Məşvərət Komitəsinin hesabatında yazılır ki, Ermənistan monoetnik bir dövlət olduğu üçün burada milli azlıqların mədəniyyətinin və dilinin inkişafına az yer verilir. [4] Təhlillər göstərir ki, bu konvensiyaya qoşulandan sonra da Ermənistanda milli azlıqların həyat səviyyəsi ilə əlaqədar heç bir dəyişiklik olmayıb. Milli azlıqların müdafiəsinə dair Çərçivə konvensiyasının Ermənistanda icrasına dair V hesabatında (15 iyun 2020) göstərilib ki, Çərçivə Konvensiyasının I bölməsinin 9-cu maddəsinə əsasən 2018-2019-cu illərdə ABŞ və Kanadanın Ermənistandakı səfirlikləri tərəfindən maliyyələşdirilən "Armavir İnkişaf Mərkəzi" qeyri-hökümət təşkilatı "Yezidi qızlarının/qadınlarının təhsil hüququna təşviqi" və "Armavir və Araqatsnotn ərazilərində yaşayan yezidi qızlarının/qadınlarının təhsil hüququnun qorunması, müəllimlik bacarıqlarının inkişafı və maarifləndirilməsi istiqamətində" qərar qəbul edib. [26, s.4] Bundan başqa, I bölmənin 28-ci maddəsində Ermənistan Konstitusiyanın 89-cu maddəsinə görə, milli azlıqların nümayəndələrinə Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada Milli Məclisdə yerlər ayrıldığı deyilir. "Milli azlıqlar haqqında" qanun layihəsinə görə, Ermənistan Konstitusiyası və Seçki Məcəlləsi (Konstitusiya Qanunu) ilə müəyyən edilmiş müddəalara uyğun olaraq milli azlıqların Milli Məclisdə təmsil olunması təmin edilir. [26, s.10] Ermənistan Konstitusiyasının II fəslinin 14.1-ci maddəsində də yazılır ki, "Hər kəs qanun qarşısında bərabərdir. Cins, irq, rəng, etnik və ya sosial mənşə, genetik xüsusiyyətlər, din və ya inanc, siyasi görüş və ya başqa əqidə, milli azlıqların mənsubiyyəti, doğum, yaş və ya digər şəxsi seçimlərə qarşı olan istənilən ayrı-seçkilik halları qadağan edilir". [27] II fəslin 26-cı maddəsində isə hər kəsin dini azadlığının olduğu, öz dini ayinlərini yerinə yetirməkdə sərbəst olduqları qeyd edilir. Lakin ermənilərin milli azlıqlara aid bəzi kilsələri özününküləşdirməyə çalışmaları, bunun üçün saxta bir çox sübut gətirmələri göz önündədir. Milli azlıqlara qarşı təhsil, hərbi, dini, siyasi və digər sahələrdə olan ayrı-seçkilik özünü açıq-aşkar göstərir. Etnik qruplara və milli azlıqlara qarşı aparılan təzyiqlər növbəti hissələrdə nümunələr ilə birlikdə daha aydın təsvir olunub.[16]

2011-ci il siyahıyaalınmasına görə Ermənistanda sayları ən çox olan milli azlıqların nümayəndələri 1,2 % ilə yezidi kürdlərdir. Bəs müstəqil Ermənistanda yezidi kürdlərinin vəziyyəti necədir?

***Yezidilər***

Tarixi vətəni Assuriya dövlətinin paytaxtı Nineviya şəhəri hesab olunan yezidilər, günümüzdə İraq, Gürcüstan, Rusiya və Ermənistan kimi ölkələrdə yaşamaqdadılar. Say çoxluğu ilə İraqda yaşayan yezidilər, Ermənistanda, xüsusən qərb bölgələrində məskunlaşıblar. Bu ərazilərə Sərdarabad (Armavir), Vedi (Ararat), Alagöz (Araqatsotn) və İrəvanı aid etmək olar. Qeyd etmək lazımdır ki, 1989-cu ilədək yezidilər kürdlərə aid edilirdi və əhalinin siyahıyaalınmasında ayrıca xalq kimi göstərilmirdi. [8, s.178] 2011-ci ilin siyahıyaalınmasına əsasən Ermənistanda 35,272 yezidi, ondan 10 il əvvəlki, yəni 2001-ci ilin siyahıyaalınmasına görə isə yezidilərin sayı 40,620 idi. 2019-cu il erməni mənbələrinin məlumatlarına görə, yezidilərin sayı 35 min 272 nəfər idi. [8, s.176] Bəs bu qədər azalmanın əsas səbəbləri nələrdir? 2014-cü il yanvarın 17-də "epress.am"da verilən məlumata görə, "Ermənistanda yaşayan yezidilər sürətli şəkildə mühacirət edirlər. Bunun səbəbi əvvəllər işsizlik və pis sosial şərait olubsa, indi bu problemlərə yüksək kommunal ödənişlər də əlavə edilib." [13] Ermənistanın Yezidilər İttifaqının üzvü Aziz Tamoyan bildirmişdir ki, yezidilərin öz ailələrini dolandırmaq üçün işi yoxdur. Əslində Ermənistan hakimiyyəti yezidilərin yaşadıqları bölgələrdə sosial-iqtisadi şəraiti aşağı vəziyyətdə saxlamaqla onların ölkədən kənara və yaxud ölkənin mərkəzi şəhərlərinə köçməsinə çalışır. Böyük şəhərlərə gələn yezidi icmasının nümayəndələri isə erməni çoxluğu arasında assimilyasiyaya uğrayır, dilini və mədəniyyətini itirirlər.

2016-cı il dekabrın 19-da "lurer.com"da verilən xəbərdə deyilir:

*"Yezidilər Ermənistandan mühacirət edirlər".* [21]

Bu sözlər "Gənc yezidilər" QHT-nin sədri, Səid Avdalyan tərəfindən söylənilib. Səid Avdalyan Ermənistanda yaşayan bir çox yezidinin məskunlaşdığı ərazilərin yaşayış üçün tam təmin olunmadığını, sakinlərin qaz, işıq, içməli su kimi ehtiyaclarının ödənilmədiyini bildirib. O, əlavə olaraq qeyd edib ki, yaşayış məskənlərinə gedən yolların bərbad vəziyyətdə olması bu ərazilərdə yaşayan insanların həyatını daha da dözülməz edir, çətinləşdirir. Nümunə olaraq, Tlik (Tliq) kəndinin içməli sudan tamamilə məhrum olduğunu, Mollaqasım (Zovuni) kəndinin isə qaz ilə təmin olunmadığını söyləyir. Bunu da nəzərə almaq lazımdır ki, Ermənistanda yaşayan yezidilərin çoxu kəndlərdə məskunlaşıblar və əkinçiliklə məşğuldular. Lakin bu kimi halların olması əhalinin həyat səviyyəsini aşağı salır- deyərək Avdalyan bildirib.

2019-cu ildə "multimedia.alttv.am"-da paylaşılan xəbərə görə, Tliqdə vəziyyət illər keçməsinə baxmayaraq, elə də ürəkaçan deyil. Xəbərdə deyilir:

*"Tliq, problemlərin gündən-günə artdığı yezidi icmasıdır".* [22]

Tliq yezidi icmasında heç nəyin dəyişilmədiyini, faktiki yaşayan ailələrin sayının gün-gündən azaldığını, problemlərin isə daha da artdığını qeyd edirlər. Bundan əlavə, ərazinin içməli su şəbəkəsi ilə heç vaxt təmin olunmadığı, nəqliyyat, xəstəxana məntəqəsi, hətta mağazanın belə olmadığı şəxsən Tliq kəndinin daimi sakini tərəfindən deyilib.

Ermənistanda yezidilərin təhsil alması üçün yaradılan şərait də ağırdır. Yezidi Milli Assosiasiyası QHT üzvü Zemfira Kalaşyan 2019-cu ildə yezidi icmasının ən önəmli probleminin uşaqların təhsildən kənar qalması olduğunu bildirib. O, yezidi dilinin keçirilməsi ilə əlaqədar suala cavab olaraq deyib:

*“Çox təəssüf ki, Yezidi dili kursları qruplar halında keçirilir. Və dərslər onsuz da uşaqların yorğun olduğu son saatlara qalır, üstəlik məktəblərdə bufetin olmaması yorğunluğun üzərinə aclığı da əlavə edir.”* [23]

Zemfira Kalaşyan əlavə olaraq qeyd edir ki, yezidi dili dərslərini tədris edən müəllimlərin də əsas hissəsi pedaqogikadan kifayət qədər uzaqdırlar. Əlbəttə, bu kimi hallar dərslərin keyfiyyətini aşağı salır. Həmçinin dərsliklərin yetəri qədər olmaması problemi daha da dərinləşdirir. Bəzi nəşr olunan dərsliklər isə yezidi icması tərəfindən dəstəklənmir. Bunun əsas səbəbi dərsliklərin kiril, latın və ya ərəb əlifbası ilə yazılmasıdır. Tliq kəndində də vəziyyət heç də fərqli deyil. Məktəb binasının uçuq-sökük olması, siniflərin birləşməsi, yetərli müəllimlərin olmaması kimi hallar uşaqların təhsil alması üçün çox böyük problemdir.

Yezidilərə qarşı təzyiqlər orduda da özünü göstərir. Buna misal olaraq, 2019-cu ilin dekabrında orduda naməlum şəkildə ölümcül yaralanan yezidi Artur Ajamyanı misal göstərmək olar. Onun yaxınları məsələni aydınlaşdırmaq üçün hökümət binasının qarşısına toplaşmış və Nikol Paşinyanla görüş tələb etmişdilər. Lakin hüquq-mühafizə dəstələri onların hökümət binasına daxil olmalarına və Paşinyanla görüşmələrinə icazə verməyiblər. Hüquq-mühafizə orqanlarının əməkdaşları Artur Ajamyanın yaxınlarına qarşı lüzum olmadığı halda zor tətbiq etmişdilər, nəticədə bir neçə nəfər ağır xəsarət almışdı. [24]

Ermənistanda yezidilərin yaşayışı ilə əlaqədar belə bir nəticəyə gələ bilərik ki, həyat səviyyəsinin lazımi səviyyədə olmaması, yezidilərin yaşadıqları əraziləri tərk etmələrinə səbəb olur. Ermənistan toplumunda yezidilərə qarşı irqi ayrı-seçkilik artır. Bütün sahələrdə özlərinə qarşı ayrı-seçkiliyin edildiyini artıq yezidilər də gizlətmirlər. Onlar sadəcə Serj Sarkisyanın dövründə deyil, hal-hazırda Nikol Paşinyanın hakimiyyəti illərində də eyni formada çətin vəziyyətdə olduqlarını deyirlər. [10]

***Yəhudilər. Antisemitizm***

Ermənistanda yaşayan azsaylı xalqlardan biri də yəhudilərdir. Dağ yəhudiləri olaraq adlandırılan Qafqaz yəhudiləri bugünkü Ermənistanın ən qədim sakinlərindəndilər. Yəhudilərin bu bölgəyə gəlişi I əsrə qədər gedib çıxır. [8, s.134] Tarixi mənbələrdə XIX əsrdə Polşadan və İrandan yəhudilərin İrəvan şəhərinə köçmələri barədə məlumatlar vardır. O zaman əraziyə gələn Avropa yəhudiləri Aşkenazi icmasını, İrandan gələn yəhudilər isə Seferadi icmasını formalaşmışdılar. [7, s.98] Stalinin köçürmə siyasəti nəticəsində II Dünya müharibəsindən sonra Ermənistanda yəhudi toplumu 5 min nəfərə qədər çatmışdır. 1970-1980-ci illərdə isə yəhudilər İsrailə köç etməyə başlamış və Ermənistanda sayları kəskin dərəcədə azalmışdır.

Yezidi kürdlərdən fərqli olaraq yəhudilər hələ sovet dövründən etibarən, əsasən İrəvan, Böyük Qarakilsə (indiki Vanadzor), Gümrü şəhərlərində və Göyçənin (Sevanın) Yelenovka kəndində məskunlaşıblar. 1991-ci ildən sonra onların sayı kəskin şəkildə azalıb. Təkcə 1992-1994-cü illərdə 6000-dən çox yəhudi Ermənistandan köçərək İsrailə gedib. [2, s.171] 1989-cu il siyahıyaalınmasında yəhudilərin sayı 720 nəfər idisə, 2011-ci il siyahıyaalınmasında isə bu rəqəm 127 nəfərə qədər azalmışdır.[25] 2007-ci ildə Maykl Freud tərəfindən yazılan məqalədə Ermənistandakı yəhudilərin sayının 300-500 nəfər aralığında olduğu və çox hissəsinin paytaxt İrəvan şəhərində məskunlaşdığı qeyd edilir. [18] Yəhudilər tərkib baxımından 3 əsas qrupa bölünür: aşkenazilər, səfəradilər, mizrahilər. Ermənistanda yaşayan yəhudilərin sayı bəzi mənbələrdə 100 nəfər, bəzilərində isə 500 nəfər göstərilir. Onlar əsasən aşkenazi və mizrahi mənşəli yəhudilərdir. 1988-ci il dekabrın 7-də baş verən Hamamlı (Spitak) zəlzələsindən əvvəl Gümrüdə də kiçik yəhudi qrupları məskunlaşmışdı. [10]

Ermənistanda yəhudilərin sərbəst şəkildə yaşamaları və öz adət-ənənələrini qorumaları üçün 1991-ci ildə qəbul olunan “Vicdan azadlığı haqqında” qanun yalnızca kağız üzərində qalmışdır.[1] Bunun kimi bir çox ayrı-seçkilik nümunələri, yəhudilərin kəskin surətdə azalmalarına təkan verib. 2022-ci il məlumatına əsasən Ermənistan Respublikasında, əsasən də paytaxt İrəvanda təxminən 300-500 yəhudi yaşayır. Onlar əsasən Aşkenazi, bəziləri isə Mizhari gürcü yəhudiləridir. [7, s.130]

Ermənistanda antisemitizmin göstəricisinin 32% olması, milli azlıqların vəziyyətinin elə də yaxşı olmadığını göstərir. Ermənistan həmçinin yəhudilərə qarşı ən az tolerant ölkə olaraq seçilib. Buna misal olaraq yəhudilərin saylarının gün-gündən azalmasını, assimilyasiyaya uğramalarını, hakimiyyət, xalq və media tərəfindən zorakılığa uğradıqlarını qeyd etmək olar. “İsrail Hayom” qəzetintə 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda anti-semitizm əhval-ruhiyyəsinin gücləndiyini bildirən məqalədə yazılır:

*“İkinci Qarabağ müharibəsinin bitməsindən bir il sonra Ermənistanda anti-semitizm nəinki zəifləmədi, hətta daha da intensivləşdi. İsrailin Azərbaycana dəstəyi ilə bağlı anti-semitizmin artması normal haldır. Bu, onların İsrailə və yəhudilərə qarşı düşmənçiliyini daha da artırdı”.* [8, s.43]

### *Ruslar*

2001-ci il siyahıyaalınmasına əsasən Ermənistanda əhalinin 0,5%-ni, yəni, 14 min 660 nəfərini ruslar təşkil edirdi. 2011-ci ilin siyahıyaalınmasına görə, sayları təxminən 11 min 862 nəfər olan ruslar əvvəllər Ermənistan ərazisində daha çoxluq təşkil edirdilər. Keçən 12 illik vaxt ərzində rusların sayı 2 min 798 nəfər azalıb. SSRİ-nin dağılması, ərazidə gərginliyin artması, iqtisadi vəziyyətin pisləşməsi rusların sayının get-gedə azalmasına səbəb oldu. 1926-cı il siyahıyaalınmasına görə, Ermənistanda ruslar 2,22% təşkil edirdisə, 1989-cu ildə 1,56%-ə, 2011-ci ildə isə artıq 0,39%-ə qədər azalmışdır. Əsas məskunlaşdıqları ərazilərə İrəvan, Alagöz (Araqotsnot) , Vedi (Ararat) və Sərdarabad (Armavir) misal göstərmək olar. Lakin bu ərazilərdən əlavə digər bölgələrdə də ruslar məskunlaşıblar.

Ermənistan müstəqillik əldə etdikdən sonra rus məktəblərinin sayı get-gedə azalmaqdadır. 1993-cü il aprelin 17-də hökumət “Dil haqqında” adlı sərt qanun qəbul etdi. Qanun bütün sahələrdə erməni dilinin istifadəsinə şərait yaratdı. Bu, təhsil baxımından həm dövləti, həm də ictimaiyyəti narahat edirdi. Qanunda yazılırdı ki, indiki təhsil sistemində ədəbi erməni dili tədris və tərbiyə dilidir. [6, s.69]

Bundan sonra Ermənistanda rus məktəbləri bağlandı və rus dili məktəblərdə ancaq xarici fənn kimi tədris olundu. Bu qanunun qüvvəyə minməsindən bir il sonra Ermənistanda rus dilində təhsil alan səkkiz məktəbdən heç biri qalmadı; onların hamısı erməni dilinə çevrildi (baxmayaraq ki, qeyd edildiyi kimi, - azlıqların uşaqları və qarışıq nikahlı uşaqlar üçün məktəblərdə rus sinifləri saxlanılırdı).[6, s.69] Rus məktəbləri əsasən İrəvan və Gümrüdə qalmışdır. Verilən məlumata görə, hazırda Ermənistanın 40 məktəbində “rus sinfi” var və onların cəmi 3-də təhsil rus dilindədir. Qalan 37 məktəbdə “erməni sinifləri” ilə yanaşı “rus sinifləri” də fəaliyyət göstərir. [9]

Universitetlərdə də vəziyyət eynidir. Günümüzdə yalnız bir universitetdə təhsil rus dilindədir. Universitetdə təhsil alan tələbələrin əksəriyyəti Rusiya Federasiyasının vətəndaşlarıdılar. Ümumiyyətlə, son zamanlarda Ermənistanda rus dilində təhsil alanların sayı azalmaqdadır. Hətta Slavyan Universitetinin rektoru Yuli Yakavenko deyir: *“Ermənistanda orta məmur sinfi səviyyəsində rus dilinin sıxışdırılması prosesi gedir”.* [9]

### *Molokanlar*

Ermənistanın azlıq təşkil edən etnik qruplarından biri molokanlardır. Molokanlar Rusiyadakı xristian təriqətlərindən biridir. [9] 1820-ci ildən sonra molokanların Cənubi Qafqaza köçürülməsi başlamışdır. 2005-ci ilin məlumatlarına əsasən, Ermənistan ərazisində 5000 nəfər molokan yaşayır. [19] Lakin Ermənistanın yeni müstəqillik əldə etdiyi dövrlərdə molokanların sayı daha çox idi. Təxmini 1500 nəfər əhalisi olan molokanlının yaşadığı Fioletovo kəndi molokanların ən sıx yaşadığı ərazilərdən biridir. Bundan əlavə, Lermontovo, Təşir, Dilican, Böyük Qarakilsə (Vanadzor), Göyçə (Sevan) kimi ərazilərdə də molokan icmaları vardır. Ən çox isə təxmini 2000 nəfər olmaqla İrəvan şəhərində məskunlaşıblar. Ermənistanda yaşayan molokanların sayının gün keçdikcə daha da azalmasının əsas səbəbi olaraq Ermənistan iqtisadiyyatının ağır vəziyyətdə olmasını qeyd etmək olar. Emənistanın Lori vilayətində yerləşən Lermontovo və Fioletovo kəndlərində uşaqların təhsili üçün yetərli məktəblərin olmaması, müəllimlərin molokanlardan deyil, ermənilərdən ibarət olması uşaqların ali təhsil almaq imkanları bir yana qalsın, istənilən ixtisasa yiyələnmələri perspektivindən də məhrum olmalarına səbəb olur. İvan Yakov tərəfindən yazılan məqalədə qeyd edilir ki, məktəblərdə ixtisaslı müəllimlər yoxdur, dərslər qeyri-müntəzəm şəkildə keçirilir. Hamamlı (Spitak) zəlzələsindən sonra binalar yenidən təmir olunmayıb, damlar su sızdırır, sinif otaqları pəncərə şüşələri sınıq olduğuna görə soyuqdur, qızdırmaq üçün isə yanacaq yoxdur. O həmçinin qeyd edir, kiyafət qədər dərslik və digər məktəb ləvazimatları da yoxdur. Uşaqların xəstəliklərinin gün-gündən artır. Uşaqlar arasında sarılıq və digər xəstəliklər tez-tez baş verir. [11]

Fioletovo kəndində uşaqların təhsili üçün 8 illik məktəb vardır. Lakin 8 illik təhsildən sonra insanlar məcbur olaraq uşaqlarını erməni məktəblərinə göndərməli olurlar. Bəzi məlumatlara görə, son 20 il ərzində Fioletovadan heç kim universitetə daxil olmağa cəhd etməyib. [12]

Molokanların yaşadığı kəndlərin su, elektrik enerjisi kimi ehtiyaclar ilə təmin olunmadığını da qeyd etmək lazımdır. Aydın şəkildə görürük ki, milli azlıqların həyat səviyyəsinin aşağı olması əsasən yezidilərin sıx məskunlaşdığı Tliq, Mollaqasım (Zovuni) kimi kəndlərdə deyil, molokanların da yaşadığı kəndlərdə özünü göstərir. Bu ərazilərdə tibb və əczaçılıq xidmətlərinin də minimal səviyyədə olması ölümlərin sayının daha çox olmasına gətirib çıxarır.

### *Aysorlar*

Ermənistanda sayları getdikcə azalan 3-cü ən böyük milli azlıq isə aysorlardır. 1989-cu il siyahıyaalınmasına əsasən sayları 5 min 963 nəfər olan aysorlar, 2001-ci ildə 3 min 409 nəfərə, 2011-ci ildə isə 2 min 769 nəfərə qədər azalıblar. Ermənistanın Qafqazda az miqdarda qalan aysor icmalarının evi olduğu da deyilir. Lakin müstəqillik əldə olunduqdan sonra Ermənistan iqtisadiyyatının ağır vəziyyətdə olması ərazidə yaşayan aysorların da digər milli azlıqlar kimi mühacirət etmələrinə səbəb olmuşdur. Ermənistanda aysorlar əsasən kənd əhalisidir. Digər milli azlıqların məskunlaşdıqları kəndlərdə olduğu kimi aysorların sıx məskunlaşdığı kəndlərdə də vəziyyət ürəkaçan deyil. Aysorlar əsasən Sərdarabad (Armavir), Vedi (Ararat), Alagöz (Araqatsotn) kimi ərazilərdə sıx məskunlaşıblar. Mənbələrdə Ermənistanda aysor dilində təhsilini verən yalnızca 4 məktəbin (Arzni, Verin Dvin, Dimitrov ve İrəvanda) olduğu yazılır. [17, s.3] Keçirilən dərslər aysorca, izahlar isə ruscadır. Sərdarabad (Armavir) vilayətinin kəndi olan Yeni Artagersdə (Nor Artagers) uşaqlar üçün ayrıca aysor bölməsi yoxdur. Məktəblər erməni dilindədir və aysor dərsləri həftədə cəmi 1 saat olaraq keçirilir. Dərslərin əhatə dairəsi isə limitlidir. Çox vaxt yalnızca əlifbanın keçirilməsi ilə kifayətlənirlər.

Digər milli azlıqlar kimi aysorlar da assimilyasiyaya məruz qalırlar. Demək olar ki, hər bir aysor ailəsinin tərkibində bir erməni millətinin nümayəndəsi vardır. Bu da qarışıq evliliklərin sayının gün-gündən artması ilə əlaqədardır.

Aysorlarla ermənilər arasında kilsələrin hansı xalqa mənsub olması ilə əlaqədar mübahisələr də daima gündəmdədir. Ermənilər aysorların sıx məskunlaşdığı kəndlərdə olan kilsələri də öz adlarına keçirməyə cəhd edirlər. Aysor icmasının məlumatına görə, Dimitrovo Aysor kəndində erməni keşiş kəndin yerli sədrinin dəstəyi ilə "Assur (aysor) kilsəsi Məryəm Ananı ələ keçirib". Daha dəqiq ifadə edilərsə, Ermənistanın Vedi (Ararat) vilayətindəki kilsənin ermənilərə yoxsa aysorlara aid olması ilə əlaqədar razılığa gələ bilmirlər. Ermənilər isə kilsənin girişindəki "erməni yazısı" və "erməni inşaatçısı" vasitəsi ilə bu kilsənin özlərinə aid olduğuna dair haqq qazandırmağa çalışırlar. [18, s.4]

Aysorlarla əlaqədar iş yerlərində də vəziyyət eynidir. Bununla əlaqədar İrina Qasparyan bildirmişdir ki, aysorlar və digər milli azlıqlar ayrı-seçkiliyə məruz qalırlar. Onlar öz milli mənsubiyyətlərinə görə heç bir səbəb olmadan işdən qovulur, təzyiqə məruz qalırlar. İş yerlərində baş verən bu kimi hallar göz önündə olmasa da, kimisə işdən çıxarmaq zamanı gəldikdə ilk olaraq erməni millətinin nümayəndələri əvəzinə digər milli azlıqlar işdən çıxarılırlar. [26]

***Nəticə***

Beləliklə, Erməni əhalisinin XX əsrin əvvəllərindən bəri hər zaman söylədikləri "azərbaycanlılar bizim düşmənlərimizdir" şüarı, "Ermənistanı erməniləşdirmək" ideyası və digər milli azlıqları daima sıxışdırmaları ermənilərin etnopsixologiyası ilə bağlıdır. Həm Daşnak Ermənistanı, həm sovet dövründə, həm də müstəqilliyin bərpasından sonra Ermənistanda bütün milli azlıq və etnik qruplara qarşı fikirlər dəyişməmiş, Ermənistanı qeyri-erməni əhalidən təmizləmək planları sürətlə davam etmişdir. Daima Ermənistanda vəzifələrə ancaq erməni əhalinin yerləşdirilməsi, sonrakı dövrlərdə milli azlıqların icmalarının, təşkilatlarının idarəçiliyinə həmin milli azlıqların nümayəndələrini deyil, erməni əhalini yerləşdirmələri bütün vəziyyəti açıqlayır. Milli azlıqların təzyiqlərə məruz qalmaları, əhalinin yaşadıqları ərazilərin, xüsusilə də kəndlərin təməl ehtiyaclar ilə təmin edilməməsi kimi hallar etnik qrupların saylarının gün-gündən azalmasına, əhalinin mühacirət etməsinə səbəb olub və bu kimi hallar hazırda da davam edir. Vəziyyətin dəyişməsi, əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması üçün hökümətinin gördüyü tədbirlər, qəbul etdiyi qanunlar isə heç bir işə yaramır. İllərdir davam edən qaz, elektrik enerjisi, içməli su, yol, təhsil, səhiyyə kimi problemlər yaxşılaşmaq əvəzinə daha da pisləşib. Milli azlıqların problemlərinin həlli ilə əlaqədar hökümətə bir neçə dəfə qanun layihəsi təqdim edilsə də bu layihələr heç vaxt parlamentə göndərilməmiş və həyata keçirilməmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. "Ermənistanda yəhudilərə qarşı ayrı-seçkilik siyasəti". / Qafqazşünaslığın aktual problemləri məqalələr toplusu. Bakı: ADMİU-nun mətbəəsi, 2021, s. 25-39.
2. Hacıyev Q., Kəlbizadə E., Eyvazov A., İsmayılova T., Əzimzadə A., İmaməli Ş. Ermənistan: daxili sosial- iqtisadi və siyasi şərait. MTM Innovation MMC. 2019. – 352 s.
3. Qasımlı M.C. "Erməni məsələsi"ndən "Erməni soyqırımı"na: Gerçək tarix axtarışında (1724-1920). Bakı: "Mütərcim", 2014. – 468 səh.
4. Qasımlı M.C., Kəlbizadə E.H. İrəvan necə varsa: Keçmişdən bu günə// Bakı: "Aspoliqraf LTD" MMC, 2022, s.162-172
5. Qasımlı M., Kəlbizadə E., Baxşıyeva Y. : Ermənistan İsrail dövlətinin Cənubi Qafqaz siyasətində (1991-2021-ci illər)//Bakı: Mütərcim, 2022. - s 95-128/s 100.

6. Musayeva G. Socio-Political Struggle Concerningthe Russian Language in Armenia.// Review of Armenian Studies, 2022, s. 67-83.
7. Laçıner S. Ermeni-Yahudi anlaşmazlığı ve İsrail-Türkiye işbirliğini'nin Ermenistan'a etkileri. // "Hukuk fakültesi" jurnalı, №3-4, 2001, s. 134
8. Калбизаде Э. Антисемитизм в Армении: до и после «бархатной революции». // "İRS" jurnalı, №116, Bakı, 2022, s. 42-46.
9. *https://www.azadliq.org/a/1815746.html* (06.09.2009) / Asmik Smbatyan: Ermənistanda rus dilinə maraq azalır.
10. *http://newtimes.az/az/processestrends/6811/* (04.10.20) / Əzimzadə A. Ermənistanda antisemitizm.
11. *http://www.molokane.org/places/Turkey/Kars/Karagoz/Who_are_Molokans.html* (24.11.22) / Erkan Karagöz: Molokanlar kimlerdir?
12. *https://faktyoxla.az/tr/news/view/1527/ermenistan-daki-ezidiler-hor-goeruelueyor* (20.09.2021) / Ermenistan'daki Ezidiler hor görülüyor.
13. *http://www.demoscope.ru/weekly/ssp/sng_nac_89.php* Всесоюзная перепись населения 1989 года. Национальный состав населения по республикам СССР.
14. *http://www.parliament.am/legislation.php?sel=show&ID=1&lang=eng* (06.12.2015) / Amendments to the Constitution of the Republic of the Armenia//Adopted
15. *https://www.molokane.org/molokan/Locations/FSU/Armenia/Semyonov.html* (01.08.2001) / Ivan Yakov Semyonov: Molokans in Armenia.
16. *https://rm.coe.int/5th-sr-armenia-en/16809eb7b3* (15.06.2020) / Fifth Report submitted by Armenia Pursuant to Article 25, paragraph 2 of the Framework Convention for the Protection of National Minorities.
17. *https://www.molokane.org/molokan/Locations/FSU/Armenia/Grigorian.htm* (23.02.2000) / Mark Grigorian: "A handful of Russia in the Armenian Highlands".
18. *https://www.jpost.com/Jewish-World/Jewish-News/Vandals-deface-Holocaust-memorial-in-Armenia* (23.12.2007) / Michael Freund: Vandals deface Holocaust memorial in Armenia.
19. *https://aircenter.az/uploads/files/Analysis_Being%20Assyrian%20in%20mono-ethnic%20Armenia.pdf* / Mirza İbrahimov, Baku, AZ1100, Azerbaijan: Being Assyrians in mono-ethnic Armenia, s. 3.
20. *https://www.refworld.org/docid/46f2588a23.html (13.09.2005) / Onnik Krikorian: EurasiaNet, Armenia: Lessons for a Molokan.*
21. *https://lurer.com/?p=484095&l=am* (02.10.2022) / Փաշինյանը շնորհավորական ուղերձ է հղել ՀՀ ազգային փոքրամասնությունների օրվա առիթով (Paşinyan ER-nin milli azlıqlarının günü münasibəti ilə təbrik mesajı göndərib)
22. *https://epress.am/2014/01/17* (17.01.2014) / Եզդիների թիվը Հայաստանում արագ կրճատվում է. (Yeizidilərin sayı Ermənistanda sürətlə azalır)
23. *https://lurer.com/?p=241922&l=am* (19.12.2016) / Եզդիներն արտագաղթում են Հայաստանից. (Yezidilər Ermənistandan mühacirət edirlər)
24. *https://multimedia.alttv.am/page15583231.html* (24.11.2022) / Թլիկ՝ եզդիական համայնք, որտեղ օր-օրի խնդիրներն ավելանում են. (Tliq problemlərin gün-gündən artdığı yezidi icmasıdır)

25. *https://infocom.am/hy/article/5576* (16.04.2019) / Եզդիական համայնքի ամենաէական խնդիրն է երեխաների կրթությունից դուրս մնալը. Զեմֆիրա Քալաշյան (Yezidi icmasının ən mühüm problemi uşaqların təhsildən kənarda qalmasıdır. Zemfira Kalaşyan)
26. *https://www.aysor.am/am/news/2019/12/26/%D5%A6%D5%B8%D5%B0%D5%BE%D5%A1%D5%AE%D5%A6%D5%AB%D5%B6%D5%AE%D5%A1%D5%BC%D5%A1%D5%B5%D5%B8%D5%B2/1644534* (26.12.2019) / Ամեն ինչի ընդունակ եմ, կգնամ դիակը կհանեմ, կբերեմ ստեղ. Լարված իրավիճակ՝ կառավարության մոտ «Տեսանյութ»
27. "ԱԶԳԱՅԻՆ ՓՈՔՐԱՄԱՍՆՈՒԹՅՈՒՆՆԵՐԸ ՀԱՅԱՍՏԱՆՈՒ". (31.07.2018) / (Ermənistanda milli azlıqlar)

Daxilolma tarixi: 09.05.2023
Çapa qəbul edilmişdir: 02.06.2023